

# *Vaqif* BƏHMƏNLİ-70

Tanınmış şair, tərcüməçi və publisist Vaqif Bəhmənlini 70 illik yubileyi münasibətilə təbrik edirik.

Vaqif Bəhmənli (Vaqif İttifaq oğlu Quliyev) 1955-ci il may ayının 23-də Füzuli rayonunun Böyük Bəhmənli kəndində anadan olub. 1972-ci ildə doğulduğu kənddə orta məktəbi əla qiymətlərlə bitirib. 1973-78-ci illərdə Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində təhsil alıb. Universiteti bitirdikdən sonra "Sovet kəndi" (1978-88), "Kommunist" qəzetlərində şöbə müdiri, "Vətən" Cəmiyyətinin "Odlar yurdu" qəzetində baş redaktor, "Bərəkət" (sonradan "Həyat") qəzetində baş redaktor, "Yazıçı" nəşriyyatında redaktor (1994), respublika Gənclər və İdman Nazirliyində şöbə rəisi (1995-1997), "Ədalət" qəzetində baş redaktorun birinci müavini (1997-98), "XXI-Gənclik dərgisi"ndə redaktor (1998-2000), "XXI-Yeni Nəşrlər evi"nin baş redaktoru (2000), "Mars" dərgisində baş redaktorun müavini (2003) , Beynəlxalq Avrasiya Mətbuat Fondunun departament rəhbəri (2003), "Humanitar" qəzetində redaktor (2004), "525-ci qəzet"də şöbə müdiri (2005), Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyində şöbə müdiri (2006-2016) vəzifələrində çalışıb. Hazırda "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzinin direktor müavinidir. Müstəqillik illərində Azərbaycanda nəşriyyat-poliqrafiya sahəsinin müstəqillik illərində inkişaf etdirilməsində, ədəbi əsərlərin latın qrafikası ilə kütləvi tirajla nəşrə hazırlanmasında, Beynəlxalq Kitab Sərgi-yarmarkasının yaradılması və keçirilməsində, "Gənc ədiblər" məktəbinin təşkili və yeni ədəbi qüvvələrin üzə çıxarılmasında, "Qızıl kəlmə" ədəbiyyat mükafatının təsis edilməsində əməyi olmuşdur.

İlk məqalə və şeirləri 1970-ci ildə Füzuli rayonunda çıxan "Araz" qəzetində işıq üzü görüb. Mərkəzi mətbuatda dərc olunan ilk şeiri "Tumurcuq" adlanır. 1970-ci illərin ortalarından başlayaraq şairin teleradio ssenariləri əsasında hazırlanmış verilişlər etdirilmiş və səsləndirilmişdir.Azərbaycan Televiziyasında "Gənclik təqdim edir" verilişinin aparıcısı olmuşdur. SSRİ-nin və Azərbaycanın həm ictimai-siyasi, həm də ədəbiyyat istiqamətli qəzet və dərgilərində ("Ədəbiyyat və incəsənət", sonralar "Ədəbiyyat qəzeti", "Azərbaycan", "Ulduz", "Literaturnıy Azerbaydjan", "Göyərçin", "Günəş", "Komsomolskaya pravda, "Moskva"(Rusiya), "Kardeş kalemler" (Türkiyə) və s. ardıcıl olaraq çıxış etmişdir. Əsərləri "Azərbaycan", "Yaşıl budaqlar", "Poeziya günü", "Sabir poeziya günü", "Külək qarı səpələr", "Şeir vaxtı", "Azərbaycan ədəbiyyatı antologiyası", "Azerbaydjanskaya poeziya" almanaxlarına daxil edilib.Şeir və məqalələrdən ibarət 60-dan çox kitabı işıq üzü görüb.

Vaqif Bəhmənli obrazlı düşüncə şairidir. Türk bədii düşüncəsinin ənənələrinə arxalanmaq, insanın hiss və duyğularını canlandırmaq üçün yeni poetik məqsədlərə sənətkarlıqla cəhd etmək, özünəxas bədii deyim tərzi, güclü kalorit yaradıcılığının səciyyəvi xüsusiyyətləridir. Şairin yaradıcılığı haqqında çoxsaylı araşdırmalar aparılmış, güclü ədəbiyyatşünasların qələmə aldığları məqalələr mətbuatda çap edilmişdir. Əsərləri haqqında Bəxtiyar Vahabzadə, Tofiq Mahmud, Məstan Günər, Cahangir Məmmədli, Nəriman Həsənzadə, Musa Yaqub, Elçin Əfəndiyev, İntiqam Qasımzadə,Vaqif Yusifli, Yaqub Öməroğlu. Ülkü Taşlıova, Nizaməddin Şəmsizadə, Nizami Cəfərov, Rəşad Məcid, Umud Rəhimoğlu, Nərgiz Cabbarlı, Esmira Fuad, Elnarə Akimova, Bəsti Əlibəyli, Təranə Vahid və digər görkəmli edib və tənqidçilər məqalələr yazmış, rəy söyləmişlər.

Əsərləri italyan, rus, özbək.Ukrayna, türk, alman, ingilis, türkmən, gürcü, fransız, fars dillərinə çevrilib. Almaniya, Rusiya, Türkiyə. İngiltərə, İtaliya, Birləşmiş Ərəb Əmirlikləri, Hindistan,.Ukrayna, İran, Belarus, Macarıstan, Latviya,Tacikistan,Qırğızıstan, Qazaxıstan, Gürcüstan,Udmurtiya, Abxaziya və digər ölkələrdə rəsmi və yaradıcılıq səfərlərində olub.

"Azərbaycan" fotoalbomunun, "Azərbaycan Dövlət Kitabı"nın mətn müəlliflərindən biridir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin mədəniyyətin inkişafına yönəlik fəaliyyətindən bəhs edən "Vətənin İlhamı-ömürdən reportaj", Ulu Öndər Heydər Əliyevin adını əbədiləşdirən ünvanları canlandıran "Heydər Əliyev adına" əsərlərində ciddi, həm də çox araşdırılan mövzulara tamamilə yeni yanaşma diqqəti cəlb edir. Ədəbiyyat, sənət və həyat haqqında yüzlərlə ədəbi qeydləri, publisistik araşdırmaları, məqalələri mətbuatda dərc edilib. 100-dən çox kitabın redaktoru və tərtibçisidir.

1986-cı ildə Respublika Komsomol mükafatına, 1989-ildə Azərbaycan Ali Sovetinin Fəxri Fərmanına, Azərbaycan Jurnalistlər İttifaqının Fəxri Fərmanına, 1989-2004-də Azərbaycan Yazıçılar Birliyinin İsa İsmayılzadə adına "İlin ən yaxşı şeiri" mükafatına, Türk dünyası poeziyasına xidmətlərinə görə Şahmar Əkbərzadə adına mükafata (2003), Azərbaycan Respublikasının "Əməkdar mədəniyyət işçisi" fəxri adına (2005), "Yaddaş" Milli mükafatına, Rəsul Rza adına beynəlxalq mükafata, Əli Kərim adına ən yaxşı poeziya mükafatına, AR Mədəniyyət Nazirliyinin "Qızıl kəlmə" ədəbiyyat mükafatına layiq görülmüşdür. Azərbaycan Milli Kitabxanası tərəfindən "Biblioqrafiya"sı hazırlanmış, kitablarından ibarət sərgisi keçirilmişdir. Şairin özünün ifasında "Səndən özgə" və "Artırma" adlı poeziya albomları hər biri 1000 nüsxə olmaqla işıq üzü görmüşdür. 10-dan çox şeirinə mahnı bəstələnmişdir. Moskvada, Ankarada, İstanbulda, Ağrıda keçirilən poeziya festivallarının mükafatlarının laureatıdır.

Hörmətli Vaqif müəllimi bir daha yubileyi münasibətilə təbrik edir, ona uzun ömür, cansağlığı, yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**